**“Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram”ın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 6 dekabr tarixli 469-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 fevral tarixli 1225 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 11 aprel 2019-cu il
№ 157

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin
2019-cu il 11 aprel tarixli 157 nömrəli Qərarı
ilə
təsdiq edilmişdir.

**Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə**

## XÜSUSİ PROQRAM

1. “Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram”

(bundan sonra - Proqram) "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə əsasən hazırlanmışdır.

2. Bu Proqram ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlığın (bundan sonra - hazırlıq) təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

3. Hazırlıq bu Proqramın 1, 2, 3 və 4 nömrəli əlavələri olan tədris proqramları əsasında Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki "Nəqliyyat Təlim-Tədris Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində və Bakı Nəqliyyat Agentliyinin "Sürücü Təlim Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində (ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərə münasibətdə) aparılır.

4. Hazırlığın yüksək keyfiyyətini və səmərəliliyini təmin etmək məqsədi ilə qruplar 25 nəfərdən çox və 10 nəfərdən az olmayan sayda formalaşdırılır. Hazırlıq mühazirələrdən, praktiki məşğələlərdən və yekun qiymətləndirmədən ibarətdir və bir sutka ərzində 6 saatdan artıq olmamaqla keçirilir.

5. Hazırlıq tədris kabinetlərində, təlim meydançasında və simulyator (avtotrenajor) otaqlarında müvafiq sahə üzrə yüksəkixtisaslı, təcrübəli müəllim və təlim ustaları tərəfindən keçirilir.

6. Proqrama uyğun olaraq "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"nin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2009-cu il 3 aprel tarixli 52 nömrəli, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli, "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli qərarlarının ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarına dair müddəaları, sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, o cümlədən ümumi istifadədə olan avtomobil nəqliyyatı sürücülərinin və sərnişinlərin, habelə sifarişçilərin hüquqlarına, vəzifələrinə, qadağalara, sərnişinlərin və yüklərin daşınma qaydalarına, sərnişin və yük daşımalarının təhlükəsizliyinin təmin olunmasına dair müvafiq müddəaları, habelə həmin daşımaları tənzimləyən normativ hüquqi aktlar barədə məlumatları özündə əks etdirən materiallardan istifadə olunur.

7. Hazırlıq zamanı ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin daşımalarını həyata keçirən sürücülərə etik davranış qaydaları, sərnişinlərlə ünsiyyətdə kobudluğun, avtomobil nəqliyyatında siqaret çəkilməsinin və qida qəbul edilməsinin yolverilməzliyi, həmçinin sərnişinlərlə mədəni rəftar etmənin,

qonaqpərvər və nəzakətli olmağın, unudulmuş əşyalar barədə polis orqanlarının məlumatlandırılmasının zəruriliyi, habelə peşəkarlıq və məsuliyyət, sərnişinlərlə ünsiyyətin psixologiyası və münaqişəli vəziyyətlərin aradan qaldırılması yolları, müxtəlif təhlükəli yol şəraitində sürücünün davranışı haqqında, eləcə də avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlar barədə məlumatlar verilir.

8. Hazırlıq zamanı ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili yük daşımalarını yerinə yetirən sürücülərə yüklərin qəbulu, rəsmiləşdirilməsi, təhlükəsiz yerləşdirilməsi, bərabər paylanılması, bərkidilməsi, daşınması və təhvil verilməsi qaydaları, müxtəlif növ yüklərin daşınmasının şərtləri və xüsusiyyətləri, habelə avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili yük daşımalarını tənzimləyən normativ hüquqi aktlar barədə məlumatlar verilir.

9. Hazırlıq zamanı sürücülərə tarixi mədəniyyət abidələrinin, sosial əhəmiyyətli obyektlərin, ali təhsil müəssisələrinin, ticarət obyektlərinin, xəstəxanaların yerləşdiyi ərazilər barədə qısa məlumatlar verilir.

10. Proqramla müəyyən edilmiş məşğələlər tərtib edilmiş jurnal üzrə aparılır.

11. Hazırlıqda iştirak edən sürücülərin hazırlıq səviyyəsini müəyyən etmək və təqdim olunan məlumatlara marağı formalaşdırmaq üçün hər mövzu öyrənildikdən sonra və Proqramın yekununda keçirilən tədrisin sürücülər tərəfindən mənimsənilməsi keçirilən test imtahanı ilə qiymətləndirilir.

12. Proqramın müvafiq mövzuları üzrə test tapşırıqlarının 50 faiz və ondan çoxuna cavab verən sürücülər hazırlığı müvəffəqiyyətlə bitirmiş hesab edilirlər və onlara hazırlıq keçməsini təsdiq edən və etibarlılıq müddəti 5 (beş) il olan şəhadətnamə (bu Proqramın 5 və 6 nömrəli əlavələri) və tədris olunan mövzuları daha yaxşı mənimsəmələri üçün əyani yaddaş materialları təqdim olunur.

13. Proqramın müvafiq mövzuları üzrə test tapşırıqlarının 50 faizinə cavab verə bilməyən sürücülərin Proqramın mövzuları üzrə bilikləri təkrarən qiymətləndirilir.

14. Qiymətləndirmədə qeyri-məqbul nəticə göstərən sürücü hazırlığı bitirdikdən sonra 6 (altı) ay müddətində təkrar qiymətləndirmədə müvəffəqiyyətli nəticə göstərmədikdə, bu Proqram üzrə hazırlığı təkrar keçməlidir.

15. Şəhadətnamə sürücüyə təqdim olunur və onun tərəfindən yalnız şəxsiyyəti təsdiq edən sənədlə birgə təqdim edildikdə etibarlıdır.

16. Şəhadətnamə əvvəlki nömrəsi saxlanılmaqla aşağıdakı hallarda dəyişdirilə bilər:

16.1. sürücünün soyadı, adı, atasının adı dəyişdikdə;

16.2. şəhadətnamədə yazılan məlumatlarda yanlışlıq və ya səhv aşkar edildikdə;

16.3. şəhadətnamə yararsız hala düşdükdə.

17. Şəhadətnamə itirildikdə onun dublikatı verilir.

18. Beynəlxalq sərnişin və yük daşımaları üzrə tədris proqramını bitirib şəhadətnamə əldə etmiş sürücülərə ölkədaxili sərnişin və yük daşımaları üzrə tədris proqramına əsasən hazırlıq keçib şəhadətnamə əldə etmələrinə ehtiyac duyulmur.

19. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki "Nəqliyyat Təlim-Tədris Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti və Bakı Nəqliyyat Agentliyinin "Sürücü Təlim

Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti bu Proqrama uyğun keçirilmiş hazırlıq üzrə verilmiş şəhadətnamələrin uçotunu aparırlar.

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a

**1 nömrəli əlavə**

**Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə**

**Tədris Proqramı**

| Sıra №-si | Mövzuların adları | Dərslərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi | mühazirələr | praktiki |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Avtomobil nəqliyyatı sahəsində normativ hüquqi aktlar barədə ümumi məlumat:<br>"Avtomobil nəqliyyatı haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının qanunları;<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" | 2 | 2 | - |
| 2. | Avtobuslarla beynəlxalq sərnişin daşımalarının təşkili və həyata keçirilməsi:<br>beynəlxalq sərnişin daşımalarına dair beynəlxalq müqavilələr (müqavilə, saziş, konvensiya və protokol);<br>beynəlxalq avtomobil əlaqələrinin ümumi şərtləri;<br>sığorta, tarif və digər qaydalar;<br>Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" | 5 | 5 | - |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Beynəlxalq və ölkədaxili sərnişin daşımalarını yerinə yetirən avtobuslara dair ümumi tələblər:<br>avtobusların qısa texniki xarakteristikası və təchizatı;<br>avtobusların müvafiq texniki normaların və standartların tələblərinə uyğunluğu, texniki xidməti və etibarlılığı, təhlükəsizliyə nəzarətin daima diqqət mərkəzində saxlanılması;<br>beynəlxalq və ölkədaxili sərnişin daşımalarını həyata keçirən avtobuslara dair əsas tələblər və onların təsnifatı;<br>beynəlxalq və ölkədaxili sərnişin daşımalarının həyata keçirilməsi üçün nəzərdə tutulan avtobusların hərəkət tərkibinin seçilməsi;<br>beynəlxalq və ölkədaxili sərnişin daşımalarını həyata keçirən avtobuslara dair ekoloji tələblər | 7 | 5,5 | 1,5 |
| 4. | Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin işlərinin səmərəli və keyfiyyətli təşkili:<br>beynəlxalq və ölkədaxili sərnişin daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin daşımalarda istifadə etdiyi avtobusların saxlanılması üçün istehsalat sahələri (qarajlar);<br>istehsalat sahələrində nəqliyyat vasitələrinin giriş-çıxışına nəzarət edən dispetçer məntəqələrinin fəaliyyəti;<br>avtobusların texniki vəziyyətinə nəzarət edən postlar;<br>avtobusların reysqabağı texniki vəziyyətinin yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinədən keçirilməsi;<br>avtobuslar reysdə olduğu zaman nasazlıq baş verdikdə, onlara ilkin texniki yardım göstərilməsinin təşkili;<br>müəssisədə sürücülərin və digər işçilərin təhlükəsizlik texnikası üzrə mütəmadi təlimatlandırılması, istehsalat sahəsinin sanitariyası, yanğın əleyhinə və əməyin mühafizəsi qaydalarına riayət olunmasının təmin edilməsi | 4 | 3 | 1 |
| 5. | Avtobusların texniki vəziyyətinə nəzarət:<br>avtobusların reysqabağı texniki müayinəsi və onlara texniki qulluq;<br>avtobusun idarə olunması zamanı daim nəzarətdə saxlanılan texniki cihazlar və avadanlıqlar; | 2,5 | 2 | 0,5 |

| | | | | |
|---|---|---|---|---|
| | avtobus reys zamanı nasazlıq nəticəsində sıradan çıxdıqda, sürücünün görəcəyi təhlükəsizlik tədbirləri və ilkin texniki yardımın göstərilməsi;<br>avtobusun yedəyə alınması | | | |
| 6. | Yol hərəkəti qaydaları haqqında ümumi məlumat:<br>yol nişanları, yolun nişanlanması və yolayrıcılarının keçilməsi qaydaları barədə ümumi məlumat;<br>yaşayış məntəqələrində və zonalarında hərəkət sürətinin düzgün seçilməsi;<br>avtomagistrallarda, dəmiryol keçidlərində düzgün hərəkət;<br>nizamlayıcı və svetoforun siqnalları;<br>piyada keçidlərinin düzgün keçilməsi qaydaları;<br>avtobusun rəvan hərəkəti və avtonəqliyyat vasitələri arasında ara məsafəsinin düzgün seçilməsi, ötmə və qarşılıqlı keçmə, düzgün manevretmə və tormozlama qaydaları;<br>xarici işıq və səs siqnallarından düzgün istifadə qaydaları;<br>nəqliyyat vasitələrinin zolaqlar üzrə hərəkəti, dayanma, durma və parklanma qaydaları, tanınma nişanları;<br>nizamlanan və nizamlanmayan yolayrıcıları;<br>avtobusların dayanacaqlara düzgün girmə və çıxma qaydaları;<br>yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən inzibati cərimələr | 9 | 7,5 | 1,5 |
| 7. | Beynəlxalq və ölkədaxili sərnişin daşımalarını yerinə yetirən avtobus sürücülərinə dair tələblər:<br>avtobus sürücülərinə dair ümumi tələblər;<br>sərnişin daşımaları üçün avtobusa və sürücüyə aid sənədlər;<br>sürücünün reysqabağı tibbi müayinədən keçməsi;<br>sürücülərin xarici görünüşü və geyim forması;<br>təhlükəli sahələrin, texniki və tibbi yardım məntəqələrinin yerləri barəsində sürücülərin müvafiq biliklərə malik olması;<br>beynəlxalq və ölkədaxili daşımalarda sərnişinlərə göstərilən xidmət;<br>yol nəqliyyat hadisələri baş verdikdə, rəsmiləşdirilmə ilə bağlı prosedurların ardıcıllığı | 4 | 4 | - |
| 8 | Avtobuslarla sərnişin daşımalarında təhlükəsizliyin təmin olunması:<br>çətin keçilən yollarda, mürəkkəb yol şəraitində, uzun sürən tıxaclarda, təbii fəlakət xarakterli fövqəladə hadisələr zamanı, mürəkkəb meteoroloji | 4 | 3 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | şəraitə adekvat olaraq avtobusun düzgün idarə edilməsi və lazımi tədbirlərin görülməsi;<br>baş verə biləcək yol nəqliyyat hadisələrinin qarşısının alınması üçün görülən tədbirlər;<br>avtobusun idarə olunmasını çətinləşdirən amillər;<br>avtobusun dayanıqlılığının itirilməsinin səbəbləri, aşmaya qarşı davamlılığı;<br>avtobusların təhlükəsiz idarə olunması və ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>günün qaranlıq vaxtında və məhdud görmə şəraitində avtobusların idarə edilməsi;<br>sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>dünyada və ölkə ərazisində il ərzində baş verən yol nəqliyyat hadisələrinin statistikası, o cümlədən avtobuslarla bağlı baş verən yol nəqliyyat hadisələri haqqında ümumi məlumat. Yol nəqliyyat hadisələri ilə əlaqədar əldə olunmuş videomaterialları nümayiş etdirməklə hadisələrin başvermə səbəbləri, sürücü, avtomobil və yol amilinin rolu barədə geniş izahın verilməsi | | | |
| 9. | Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejimi:<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminin xüsusiyyətləri, istirahət zamanı düzgün qidalanma;<br>sürücünün iş və istirahət rejimi normalarına riayət etməsi;<br>sərnişin daşımalarını yerinə yetirən sürücülərin cədvələ əsasən iş və istirahət rejiminin xüsusiyyətləri;<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını həyata keçirən hüquqi və fiziki şəxslər tərəfindən sürücülərin iş və istirahət rejiminin səmərəli təşkili;<br>taxoqraflar vasitəsi ilə beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət | 5 | 5 | - |
| 10. | Beynəlxalq sərnişin daşımalarının təşkilinin xüsusiyyətləri:<br>beynəlxalq sərnişin daşımalarının təşkili ilə bağlı sənədlər;<br>pasport, viza sənədləşdirilməsi; | 11 | 6 | 5 |

| | | | | |
|---|---|---|---|---|
| | sərnişinlərin daşınması zamanı etik davranış qaydaları;<br>beynəlxalq sərnişin daşımalarının təşkilinin və yerinə yetirilməsinin əsasları;<br>avtomobil nəqliyyatı daşımalarının gömrük tənzimlənməsi;<br>beynəlxalq sərnişin daşımalarının yerinə yetirilməsi zamanı nəzarət qaydaları | | | |
| 11. | Avtobuslarla sərnişin və baqaj (əl yükü) daşınması qaydaları<br>beynəlxalq və ölkədaxili marşrutlarda sərnişin daşımaları;<br>müntəzəm və qeyri-müntəzəm sərnişin daşımaları;<br>hərəkətin adi, sürətli, expres rejimi;<br>hərəkət cədvəlinə düzgün riayət olunması;<br>sərnişinlərin dayanacaqlar barəsində məlumatlandırılması;<br>sərnişinlərin avtobuslara minib-düşmə qaydaları;<br>ölçüyə və çəkiyə uyğun daşınmasına icazə verilən baqaj;<br>baqajın daşınmaya qəbul olunması, rəsmiləşdirilməsi və ödəniş qaydası;<br>daşınması qadağan olunan əşyalar;<br>baqajın daşınması və saxlanılması zamanı sərnişinlərə vurulan zərərin əvəzinin ödənilməsi qaydası;<br>tapılmış əşyaların saxlanılmasına dair tələblər | 4 | 3 | 1 |
| 12. | Avtobus sürücülərinin vəzifə təlimatları | 2 | 2 | - |
| 13. | İnsan alverinin qarşısının alınması və onunla mübarizə aparılması barədə məlumat | 1,5 | 1,5 | - |
| 14. | Sərnişinlərin hüquq və vəzifələri | 1 | 1 | - |
| 15. | Sərnişindaşıma xidməti göstərən daşıyıcıların hüquq və vəzifələri | 1 | 1 | - |
| 16. | Avtobus sürücülərinin hüquq və vəzifələri | 1 | 1 | - |
| 17. | Sərnişinlərlə etik davranış qaydaları və mədəni rəftar | 1 | 1 | - |
| 18. | Avtobuslarla sərnişin daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti | 1 | 1 | - |
| 19. | Azərbaycan Respublikasının avtomobil nəqliyyatı haqqında normativ hüquqi aktlarının tələblərinə riayət edilməməsinə görə daşıyıcıların, sürücülərin və sərnişinlərin məsuliyyəti | 1 | 1 | - |
| 20. | Sərnişin daşımalarında istifadə edilən avtobuslarda quraşdırılan elektron izləmə cihazı | 0,5 | - | 0,5 |
| 21. | Sərnişin daşımalarında vahid nağdsız ödəniş sisteminin tətbiqi ilə əlaqədar avtobuslara | 1,5 | - | 1,5 |

| | | | | |
|---|---|---|---|---|
| | quraşdırılmış avadanlıqdan kart vasitəsilə düzgün istifadə qaydasının öyrədilməsi | | | |
| 22. | İlk tibbi yardım:<br>ilk tibbi yardım barədə ümumi məlumat;<br>ilk tibbi yardım çantalarının tərkibi və oradakı ləvazimatlardan və preparatlardan istifadə qaydaları;<br>yol nəqliyyat hadisəsi baş verdikdə, sərnişinlərin vaxtında xilas olunması üçün görüləcək lazımi tədbirlər və xəsarət alanlara ilkin tibbi yardım göstərilməsinin ardıcıllığı;<br>travmalar zamanı ilk tibbi yardım;<br>şina qoymağın əsas qaydaları, travmatik şoka qarşı tədbirlər | 3 | 2 | 1 |
| 23. | Avtobus simulyatorunda təlim və ya avtobuslarda sürmə təlimi:<br>mürəkkəb yol şəraitində və dar keçidlərdə manevretmə;<br>hərəkətin intensivliyi çox olan yollarda və günün qaranlıq vaxtında avtobusların hərəkəti | 8 | - | 8 |
| | İmtahan | 2 | - | - |
| | Cəmi | 82 | 57,5 | 22,5 |

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a

**2 nömrəli əlavə**

## Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə

## Tədris Proqramı

| | **Mövzuların adları** | **Dərslərin növləri və həcmi (saatla)** |
|---|---|---|

| Sıra №-si | | cəmi | mühazirələr | praktiki |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Avtomobil nəqliyyatı sahəsində normativ hüquqi aktlar barədə ümumi məlumat:<br>"Avtomobil nəqliyyatı haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının qanunları;<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" | 3 | 3 | - |
| 2. | Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarının təşkili və həyata keçirilməsi:<br>beynəlxalq yükdaşımalarına dair beynəlxalq müqavilələr (müqavilə, saziş, konvensiya və protokol);<br>beynəlxalq avtomobil əlaqələrinin ümumi şərtləri;<br>Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" | 5 | 5 | - |
| 3. | Yük avtomobilinə dair ümumi tələblər:<br>beynəlxalq və ölkədaxili yük daşımalarını həyata keçirən nəqliyyat vasitələrinə dair əsas tələblər və onların təsnifatı;<br>beynəlxalq və ölkədaxili yük daşımalarının həyata keçirilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin hərəkət tərkibinin seçilməsi;<br>müasir yük avtomobillərinin, qoşqu və yarımqoşquların quruluşunun xüsusiyyətləri;<br>müasir yük avtomobillərinin qısa texniki xarakteristikası və təchizatı;<br>müasir yük avtomobillərinin müvafiq texniki normaların və standartların tələblərinə uyğunluğu, texniki xidməti və etibarlılığı, təhlükəsizliyə nəzarətin daima diqqət mərkəzində saxlanılması;<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) daşımaları həyata keçirən nəqliyyat vasitələrinə dair ekoloji tələblər | 7 | 5,5 | 1,5 |
| 4. | Beynəlxalq və ölkədaxili yük daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin işlərinin səmərəli və keyfiyyətli təşkili:<br>beynəlxalq və ölkədaxili yük daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin daşımalarda istifadə etdiyi yük avtomobillərinin saxlanılması üçün istehsalat sahələri (qarajlar); | 5 | 4 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | istehsalat sahələrində yük avtomobillərinin giriş-çıxışına nəzarət edən dispetçer məntəqələrinin fəaliyyəti;<br>yük avtomobillərinin texniki vəziyyətinə nəzarət edən postlar;<br>yük avtomobillərinin reysqabağı texniki vəziyyətinin yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinədən keçirilməsi;<br>yük avtomobilləri reysdə olduğu zaman nasazlıq baş verdikdə, onlara ilkin texniki yardım göstərilməsinin təşkili;<br>müəssisədə sürücülərin və digər işçilərin təhlükəsizlik texnikası üzrə mütəmadi təlimatlandırılması, istehsalat sahəsinin sanitariyası, yanğın əleyhinə və əməyin mühafizəsi qaydalarına riayət olunmasının təmin edilməsi | | | |
| 5. | Yol hərəkəti qaydaları haqqında ümumi məlumat:<br>yol nişanları, yolun nişanlanması və yolayrıcılarının keçilməsi qaydaları barədə ümumi məlumat;<br>yaşayış məntəqələrində və zonalarında hərəkət sürətinin düzgün seçilməsi;<br>avtomagistrallarda, dəmiryol keçidlərində düzgün hərəkət;<br>nizamlayıcı və svetoforun siqnalları;<br>piyada keçidlərinin düzgün keçilməsi qaydaları;<br>yük avtomobillərinin rəvan hərəkəti və avtonəqliyyat vasitələri arasında ara məsafəsinin düzgün seçilməsi, ötmə və qarşılıqlı keçmə, düzgün manevretmə və tormozlama qaydaları;<br>xarici işıq və səs siqnallarından düzgün istifadə qaydaları;<br>nəqliyyat vasitələrinin zolaqlar üzrə hərəkəti, dayanma, durma və parklanma qaydaları, tanınma nişanları;<br>nizamlanan və nizamlanmayan yolayrıcıları;<br>yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən inzibati cərimələr | 10 | 10 | - |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Beynəlxalq və ölkədaxili yük daşımalarını yerinə yetirən avtonəqliyyat sürücülərinə dair tələblər:<br>yük daşımalarını həyata keçirən sürücülərə dair ümumi tələblər;<br>yük daşımaları üçün avtonəqliyyat vasitəsinə və sürücüyə aid sənədlər;<br>sürücünün reysqabağı tibbi müayinədən keçməsi;<br>yük avtomobilləri idarə olunarkən texniki cihaz və avadanlıqların sürücü tərəfindən daim nəzarətdə saxlanılması;<br>yük daşımalarını həyata keçirən sürücülərə taxoqraf vasitəsilə nəzarət;<br>yüklərin qəbulu, təhvil verilməsi və rəsmiləşdirilməsi qaydaları;<br>sürücülərin etik normalara riayət etməsi və davranış qaydaları;<br>sürücülərin və avtonəqliyyat vasitələrinin sığorta olunması;<br>yol nəqliyyat hadisələri baş verdikdə, rəsmiləşdirilmə ilə bağlı prosedurların ardıcıllığı | 3 | 3 | - |
| 7. | Hərəkət təhlükəsizliyinin əsasları:<br>çətin keçilən yollarda, mürəkkəb yol şəraitində, uzun sürən tıxaclarda, təbii fəlakət xarakterli fövqəladə hadisələr zamanı, mürəkkəb meteoroloji şəraitə adekvat olaraq yük avtomobilinin düzgün idarə edilməsi və lazımi tədbirlərin görülməsi;<br>baş verə biləcək yol nəqliyyat hadisələrinin vaxtında qarşısının alınması üçün görülən tədbirlər;<br>yük avtomobilinin idarə olunmasını çətinləşdirən amillər;<br>yük avtomobilinin dayanıqlılığının itirilməsi səbəbləri, yük avtomobilinin ağırlıq mərkəzi, yüklərin bərabər paylanılması, təhlükəsiz yerləşdirilməsi və bərkidilməsi, aşmaya qarşı davamlılığı;<br>yük avtomobilinin təhlükəsiz idarə olunması və ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>günün qaranlıq vaxtında və məhdud görünmə şəraitində yük avtomobilinin idarə edilməsi;<br>sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>dünyada və ölkə ərazisində il ərzində baş verən yol nəqliyyat hadisələrinin statistikası və bu barədə ümumi məlumat. Yol nəqliyyat hadisələrinin başvermə səbəbləri. Sürücü, | 8 | 7 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | avtomobil və yol amilinin rolu barədə geniş izahın verilməsi | | | |
| 8. | Yük avtomobilləri ilə yüklərin daşınması qaydaları:<br>yeyinti və kənd təsərrüfatı məhsullarının daşınması;<br>maye halında olan yüklərin daşınması;<br>təhlükəli yüklərin daşınması;<br>tez xarab olan yüklərin daşınması;<br>tikinti materiallarının daşınması;<br>konteynerlərlə həyata keçirilən daşımalar;<br>xüsusi növ yüklərin beynəlxalq daşımalarının təşkili xüsusiyyətləri | 7 | 5 | 2 |
| 9. | Beynəlxalq yük daşımalarının təşkilinin xüsusiyyətləri:<br>beynəlxalq yük daşımalarının təşkili zamanı sənədlər;<br>pasport, viza sənədləşdirilməsi;<br>avtomobil nəqliyyatı daşımalarının gömrük tənzimlənməsi;<br>beynəlxalq avtomobil daşımalarının yerinə yetirilməsi zamanı sığortalanma;<br>beynəlxalq avtomobil daşımalarının yerinə yetirilməsi zamanı nəzarət qaydaları | 9 | 6 | 3 |
| 10. | Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) yükdaşımalarını həyata keçirən sürücülərin iş və istirahət rejimi:<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarında sürücülərin iş və istirahət rejiminə dair tələblər;<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarını həyata keçirən sürücülərin iş və istirahət rejiminin xüsusiyyətləri, istirahət zamanı düzgün qidalanma;<br>sürücünün iş və istirahət rejimi normalarına riayət etməsi;<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarında iştirak edən sürücülərin iş və istirahət rejiminin xüsusiyyətləri;<br>beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən sürücülərin iş və istirahət rejiminin səmərəli təşkili;<br>taxoqraflar vasitəsilə beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət | 5 | 5 | - |
| 11. | Avtomobil yolları barədə məlumat | 1 | 1 | - |

| | | | | |
|---|---|---|---|---|
| 12. | Yük daşımalarında fəaliyyət göstərən daşıyıcıların hüquq və vəzifələri | 0,5 | 0,5 | - |
| 13. | Yük avtomobillərini idarə edən sürücülərin hüquq və vəzifələri | 0,5 | 0,5 | - |
| 14. | Avtomobil nəqliyyatı ilə yük daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti | 1 | 1 | - |
| 15. | Avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət edilməməsinə görə daşıyıcıların və sürücülərin məsuliyyəti | 1 | 1 | - |
| 16. | Yük avtomobilinin istismarının və hərəkət qaydalarının pozulmasına görə sürücünün məsuliyyəti | 1 | 1 | - |
| 17. | İlk tibbi yardım:<br>ilk tibbi yardım barədə ümumi məlumat;<br>ilk tibbi yardım çantalarının tərkibi və oradakı ləvazimatlardan və preparatlardan düzgün istifadə qaydaları;<br>yol nəqliyyat hadisəsi baş verdikdə, görüləcək lazımi tədbirlər və xəsarət alanlara ilkin tibbi yardım göstərilməsinin ardıcıllığı;<br>travmalar zamanı ilk tibbi yardım;<br>şina qoymağın əsas qaydaları, travmatik şoka qarşı tədbirlər | 3 | 2,5 | 0,5 |
| 18. | Yük avtomobillərində sürmə təlimi dərsləri | 8 | - | 8 |
| | İmtahan | 2 | - | - |
| | Cəmi | 80 | 61 | 17 |

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a

**3 nömrəli əlavə**

**Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə**

**Tədris Proqramı**

| Sıra №-si | Mövzuların adları | Dərslərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi | mühazirələr | praktiki |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Avtomobil nəqliyyatı sahəsində normativ hüquqi aktlar barədə ümumi məlumat:<br>"Avtomobil nəqliyyatı haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının qanunları;<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" | 2 | 2 | - |
| 2. | Avtobuslara dair ümumi tələblər:<br>avtobusların müvafiq texniki normaların və standartların tələblərinə uyğunluğu və texniki cəhətdən saz vəziyyəti;<br>avtobusların qısa texniki xarakteristikası və təchizatı;<br>ümumi istifadədə olan avtobusların marşrut lövhəsi və digər məlumatlar | 2 | 1,5 | 0,5 |
| 3. | Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin işlərinin səmərəli və keyfiyyətli təşkili:<br>ölkədaxili sərnişin daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin daşımalarda istifadə etdiyi avtobusların saxlanılması üçün istehsalat sahələri (qarajlar);<br>istehsalat sahələrində avtobusların giriş-çıxışına nəzarət edən dispetçer məntəqələrinin fəaliyyəti;<br>avtobusların texniki vəziyyətinə nəzarət edən postlar;<br>avtobusların reysqabağı texniki vəziyyətinin yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinədən keçirilməsi;<br>avtobuslar reysdə olduğu zaman nasazlıq baş verdikdə, onlara ilkin texniki yardım göstərilməsinin təşkili;<br>müəssisədə sürücülərin və digər işçilərin təhlükəsizlik texnikası üzrə mütəmadi təlimatlandırılması, istehsalat sahəsinin sanitariyası, yanğın əleyhinə və əməyin mühafizəsi qaydalarına riayət olunmasının təmin edilməsi | 3 | 2 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 4. | Avtobusun texniki vəziyyətinə nəzarət:<br>avtobusların reysqabağı texniki müayinəsi və onlara texniki qulluq;<br>avtobusun idarə olunması zamanı daim nəzarətdə saxlanılan texniki cihazlar və avadanlıqlar;<br>avtobus reys zamanı nasazlıq nəticəsində sıradan çıxdıqda, sürücünün görəcəyi təhlükəsizlik tədbirləri və ilkin texniki yardım göstərilməsi;<br>avtobusun yedəyə alınması | 2 | 1,5 | 0,5 |
| 5. | Yol hərəkəti qaydaları haqqında ümumi məlumat:<br>yol nişanları, yolun nişanlanması və yolayrıcılarının keçilməsi qaydaları barədə ümumi məlumat;<br>yaşayış məntəqələrində və zonalarında hərəkət sürətinin düzgün seçilməsi;<br>avtomagistrallarda, dəmiryol keçidlərində düzgün hərəkət;<br>nizamlanan və nizamlanmayan yolayrıcıları;<br>nizamlayıcı və svetoforun siqnalları;<br>avtobusun rəvan hərəkəti və avtonəqliyyat vasitələri arasında ara məsafəsinin düzgün seçilməsi, ötmə və qarşılıqlı keçmə, düzgün manevretmə və tormozlama qaydaları;<br>piyada keçidlərinin düzgün keçilməsi qaydaları;<br>xarici işıq siqnalları və səs siqnallarından düzgün istifadə qaydaları;<br>avtonəqliyyat vasitələrinin zolaqlar üzrə hərəkəti, dayanma, durma və parklanma qaydaları, tanınma nişanları;<br>avtobusların dayanacaqlara düzgün girmə və çıxma qaydaları;<br>yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən inzibati cərimələr | 9 | 7,5 | 1,5 |
| 6. | Avtobus sürücülərinə dair tələblər:<br>avtobus sürücülərinə dair ümumi tələblər;<br>sərnişin daşımaları üçün avtobusa və sürücüyə aid sənədlər;<br>sürücünün reysqabağı tibbi müayinədən keçməsi;<br>sürücülərin xarici görünüşü və geyim forması;<br>marşrut üzrə dayanacaqların, küçə və prospektlərin, yaşayış məntəqələrinin, infrastruktur və mədəni-məişət obyektlərinin adları ilə tanışlıq;<br>təhlükəli sahələrin, texniki və tibbi yardım məntəqələrinin yerləri barəsində müvafiq biliklərə malik olma;<br>daşımalarda sərnişinlərə göstərilən xidmət | 2 | 2 | - |

| | | | | |
|---|---|---|---|---|
| 7. | Avtobuslarla sərnişin daşımalarında təhlükəsizliyin təmin olunması:<br>çətin keçilən yollarda, mürəkkəb yol şəraitində, uzun sürən tıxaclarda, təbii fəlakət xarakterli fövqəladə hadisələr zamanı, mürəkkəb meteoroloji şəraitə adekvat olaraq avtobusun düzgün idarə edilməsi və lazımi tədbirlərin görülməsi;<br>baş verə biləcək yol nəqliyyat hadisələrinin qarşısının alınması üçün görülən tədbirlər;<br>avtobusun idarə olunmasını çətinləşdirən amillər;<br>avtobusların təhlükəsiz idarə olunması və ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>günün qaranlıq vaxtında və məhdud görünmə şəraitində avtobusların idarə edilməsi qaydaları;<br>sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>dünyada və ölkə ərazisində il ərzində baş verən yol nəqliyyat hadisələrinin statistikası və avtobuslarla bağlı baş verən yol nəqliyyat hadisələri haqqında ümumi məlumat. Yol nəqliyyat hadisələri ilə əlaqədar əldə olunmuş videomaterialları nümayiş etdirməklə hadisələrin başvermə səbəbləri, sürücü, avtomobil və yol amilinin rolu barədə geniş izahın verilməsi;<br>avtobusun dayanıqlılığının itirilməsinin səbəbləri, aşmaya qarşı davamlılığı | 4 | 3 | 1 |
| 8. | Ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə dair tələblər:<br>sürücünün iş və istirahət rejimi normalarına riayət etməsi;<br>ölkədaxili sərnişin daşımalarını yerinə yetirən sürücülərin cədvələ əsasən iş və istirahət rejiminin xüsusiyyətləri, istirahət zamanı düzgün qidalanma;<br>ölkədaxili sərnişin daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən sürücülərin iş vaxtının səmərəli təşkili;<br>taxoqraflar vasitəsilə ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət | 4 | 4 | - |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Avtobuslarla sərnişin və baqaj (əl yükü) daşınması qaydaları<br>şəhərdaxili (rayondaxili) və şəhərlərarası (rayonlararası) sərnişin daşımaları;<br>müntəzəm və qeyri-müntəzəm sərnişin daşımaları;<br>hərəkətin adi, sürətli, expres və marşrut taksi rejimi;<br>hərəkət cədvəlinə düzgün riayət olunması;<br>sərnişinlərin dayanacaqlar barəsində məlumatlandırılması;<br>sərnişinlərin avtobuslara minib-düşmə qaydaları;<br>ölçü və çəkiyə uyğun daşınmasına icazə verilən baqaj;<br>baqajın daşınmaya qəbul olunması, rəsmiləşdirilməsi və ödəniş qaydası;<br>daşınması qadağan olunan əşyalar;<br>baqajın daşınması və saxlanılması zamanı sərnişinlərə vurulan zərərin əvəzinin ödənilməsi qaydası;<br>tapılmış əşyaların saxlanılmasına dair tələblər;<br>sığorta, tarif və digər qaydalar | 3 | 2 | 1 |
| 10. | Avtobus sürücülərinin vəzifə təlimatları | 2 | 2 | - |
| 11. | Sərnişin daşımalarında istifadə edilən avtobuslarda quraşdırılan elektron izləmə cihazı | 0,5 | - | 0,5 |
| 12. | Sərnişin daşımalarında vahid nağdsız ödəniş sisteminin tətbiqi ilə əlaqədar avtobuslara quraşdırılmış avadanlıqdan kart vasitəsilə düzgün istifadə qaydasının öyrədilməsi | 1,5 | - | 1,5 |
| 13. | Sərnişinlərin hüquq və vəzifələri | 1 | 1 | - |
| 14. | Sərnişindaşıma xidməti göstərən daşıyıcıların hüquq və vəzifələri | 0,5 | 0,5 | - |
| 15. | Avtobus sürücülərinin hüquq və vəzifələri | 0,5 | 0,5 | - |
| 16. | Sərnişinlərlə etik davranış qaydaları və mədəni rəftar | 1 | 1 | - |
| 17. | Avtobuslarla sərnişin daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti | 1 | 1 | - |
| 18. | Azərbaycan Respublikasının avtomobil nəqliyyatı haqqında normativ hüquqi aktların tələblərinə riayət edilməməsinə görə daşıyıcıların, sürücülərin və sərnişinlərin məsuliyyəti | 1 | 1 | - |

| | | | | |
|---|---|---|---|---|
| 19. | İlk tibbi yardım:<br>ilk tibbi yardım barədə ümumi məlumat;<br>ilk tibbi yardım çantalarının tərkibi və oradakı ləvazimatlardan və preparatlardan istifadə qaydaları;<br>yol nəqliyyat hadisəsi baş verdikdə, sərnişinlərin xilas olunması üçün görüləcək lazımi tədbirlər və xəsarət alanlara ilkin tibbi yardım göstərilməsinin ardıcıllığı;<br>travmalar zamanı ilk tibbi yardım;<br>şina qoymağın əsas qaydaları, travmatik şoka qarşı tədbirlər | 2 | 1,5 | 0,5 |
| 20. | Avtobus simulyatorunda təlim və ya avtobuslarda sürmə təlimi:<br>mürəkkəb yol şəraitində və dar keçidlərdə manevretmə;<br>hərəkətin intensivliyi çox olan yollarda və günün qaranlıq vaxtında avtobusların hərəkəti | 4 | - | 4 |
| | İmtahan | 2 | - | - |
| | Cəmi | 48 | 34 | 12 |

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a

**4 nömrəli əlavə**

## Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə

## Tədris Proqramı

| Sıra №-si | Mövzuların adları | Dərslərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi | mühazirələr | praktiki |
| 1 | 2 | 3 | 4 | 5 |

| | | | | |
|---|---|---|---|---|
| 1. | Avtomobil nəqliyyatı sahəsində normativ hüquqi aktlar barədə ümumi məlumat:<br>"Avtomobil nəqliyyatı haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının qanunları;<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" | 2 | 2 | - |
| 2. | Ölkədaxili yük daşımalarının təşkili və həyata keçirilməsi:<br>ölkədaxili yük daşımalarının mövcud qanunvericiliyə əsaslanaraq, müvafiq tələblərə uyğun həyata keçirilməsi | 1 | 1 | - |
| 3. | Yük avtomobilinə dair ümumi tələblər:<br>müasir yük avtomobillərinin, qoşqu və yarımqoşquların quruluşunun xüsusiyyətləri;<br>müasir yük avtomobillərinin müvafiq texniki norma və standartların tələblərinə uyğunluğu və texniki cəhətdən saz vəziyyəti;<br>müasir yük avtomobillərinin qısa texniki xarakteristikası və təchizatı | 2 | 1,5 | 0,5 |
| 4. | Ölkədaxili yük daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin işlərinin səmərəli və keyfiyyətli təşkili:<br>ölkədaxili yük daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslərin daşımalarda istifadə etdiyi yük avtomobillərinin saxlanılması üçün istehsalat sahələri (qarajlar);<br>istehsalat sahələrində yük avtomobillərinin giriş və çıxışına nəzarət edən dispetçer məntəqələrinin fəaliyyəti;<br>yük avtomobillərinin texniki vəziyyətinə nəzarət edən postlar;<br>yük avtomobillərinin reysqabağı texniki vəziyyətinin yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinədən keçirilməsi;<br>yük avtomobilləri reysdə olduğu zaman nasazlıq baş verdikdə, onlara ilkin texniki yardım göstərilməsinin təşkili;<br>müəssisədə sürücülərin və digər işçilərin təhlükəsizlik texnikası üzrə mütəmadi təlimatlandırılması, istehsalat sahələrinin sanitariyası, yanğın əleyhinə və əməyin mühafizəsi qaydalarına riayət olunmasının təmin edilməsi | 3 | 2 | 1 |
| 5. | Yol hərəkəti qaydaları haqqında ümumi məlumat: | 10 | 10 | - |

| | | | | |
|---|---|---|---|---|
| | yol nişanları, yolun nişanlanması və yolayrıcılarının keçilməsi qaydaları barədə ümumi məlumat;<br>yaşayış məntəqələrində və zonalarında hərəkət sürətinin düzgün seçilməsi;<br>avtomagistrallarda, dəmiryol keçidlərində mövcud qaydalara uyğun hərəkət;<br>yük avtomobillərinin rəvan hərəkəti və avtonəqliyyat vasitələri arasında düzgün ara məsafəsinin seçilməsi, ötmə və qarşılıqlı keçmə, düzgün manevretmə və tormozlama qaydaları;<br>piyada keçidlərinin düzgün keçilməsi qaydaları;<br>nizamlayıcı və svetoforun siqnalları;<br>xarici işıq və səs siqnallarından düzgün istifadə qaydaları;<br>nəqliyyat vasitələrinin zolaqlar üzrə hərəkəti, dayanma, durma və parklanma qaydaları, tanınma nişanları;<br>nizamlanan və nizamlanmayan yolayrıcıları;<br>yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən inzibati cərimələr | | | |
| 6. | Yük avtomobili sürücülərinə dair tələblər:<br>yük daşımaları üçün avtonəqliyyat vasitəsinə və sürücüyə aid sənədlər;<br>sürücülərin reysqabağı tibbi müayinədən keçməsi;<br>yük avtomobilləri idarə olunarkən texniki cihaz və avadanlıqların sürücü tərəfindən daim nəzarətdə saxlanılması;<br>yük daşımalarını həyata keçirən sürücülərə taxoqraf vasitəsilə nəzarət;<br>yüklərin qəbulu, təhvil verilməsi və sənədləşdirilməsi qaydaları;<br>sürücülərin etik normalara riayət etməsi və davranış qaydaları;<br>sürücülərin və avtonəqliyyat vasitələrinin sığorta olunması;<br>yol nəqliyyat hadisələri baş verdikdə rəsmiləşdirilmə ilə bağlı prosedurların ardıcıllığı | 2 | 2 | - |
| 7. | Hərəkət təhlükəsizliyinin əsasları:<br>çətin keçilən yollarda, mürəkkəb yol şəraitində, uzun sürən tıxaclarda, təbii fəlakət xarakterli fövqəladə hadisələr zamanı, mürəkkəb meteoroloji şəraitə adekvat olaraq yük avtomobilinin düzgün idarə olunması və lazımi tədbirlərin görülməsi;<br>baş verə biləcək yol nəqliyyat hadisəsinin vaxtında qarşısının alınması üçün görülən tədbirlər;<br>yük avtomobilinin idarə olunmasını çətinləşdirən amillər; | 6 | 6 | - |

| | | | | |
|---|---|---|---|---|
| | yük avtomobilinin dayanıqlılığının itirilməsi səbəbləri, yük avtomobilinin ağırlıq mərkəzi, yüklərin bərabər paylanılması və yük avtomobilinin aşmaya qarşı davamlılığı;<br>yük avtomobillərinin idarə olunmasının texniki qaydaları;<br>yük avtomobilinin təhlükəsiz idarə olunması və ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>günün qaranlıq vaxtında və məhdud görünmə şəraitində yük avtomobilinin idarə edilməsi qaydaları;<br>sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>dünyada və ölkə ərazisində il ərzində baş verən yol nəqliyyat hadisələrinin statistikası və bu barədə ümumi məlumat. Yol nəqliyyat hadisələrinin başvermə səbəbləri, sürücü, avtomobil və yol amilinin rolu barədə geniş izahın verilməsi | | | |
| 8. | Yük avtomobilləri ilə yüklərin daşınması qaydaları:<br>yeyinti və kənd təsərrüfatı məhsullarının daşınması;<br>maye halında olan yüklərin daşınması<br>təhlükəli yüklərin daşınması;<br>tez xarab olan yüklərin daşınması;<br>tikinti materiallarının daşınması;<br>konteynerlərlə həyata keçirilən daşımalar | 3 | 3 | - |
| 9. | Avtomobil yolları barədə məlumat | 1 | 1 | - |
| 10. | Ölkədaxili (şəhərlərarası və rayonlararası) yükdaşımaları həyata keçirən sürücülərin iş və istirahət rejimi:<br>ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarında sürücünün iş və istirahət rejiminə dair tələblər;<br>sürücünün iş və istirahət rejimi normalarına riayət etməsi;<br>ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarını həyata keçirən sürücülərin iş və istirahət rejiminin xüsusiyyətləri;<br>ölkədaxili (şəhərlərarası və rayonlararası) yük daşımalarını həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən sürücülərin iş və istirahət rejiminin səmərəli təşkili;<br>taxoqraflar vasitəsilə ölkədaxili (şəhərlərarası və rayonlararası) daşımaları yerinə yetirən sürücülərin iş və istirahət rejiminə nəzarət | 2 | 2 | - |

| | | | | |
|---|---|---|---|---|
| 11. | Yük daşımalarında fəaliyyət göstərən daşıyıcıların hüquq və vəzifələri | 0,5 | 0,5 | - |
| 12. | Yük avtomobillərini idarə edən sürücülərin hüquq və vəzifələri | 0,5 | 0,5 | - |
| 13. | Avtomobil nəqliyyatı ilə yük daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti | 1 | 1 | - |
| 14. | Avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət edilməməsinə görə daşıyıcıların və sürücülərin məsuliyyəti | 1 | 1 | - |
| 15. | Sürücünün yük avtomobilinin istismarının və hərəkət qaydalarının pozulmasına görə məsuliyyəti | 1 | 1 | - |
| 16. | İlk tibbi yardım:<br>ilk tibbi yardım barədə ümumi məlumat:<br>İlk tibbi yardım çantalarında olan ləvazimat və preparatlardan düzgün istifadə qaydaları;<br>yol nəqliyyat hadisəsi baş verdikdə görüləcək lazımi tədbirlər və xəsarət alanlara ilkin tibbi yardım göstərilməsinin ardıcıllığı;<br>travmalar zamanı ilk tibbi yardım;<br>şina qoymağın əsas qaydaları, travmatik şoka qarşı tədbirlər | 2 | 1,5 | 0,5 |
| 17. | Yük avtomobillərində sürmə təlimi dərsləri | 4 | - | 4 |
| | İmtahan | 2 | - | - |
| | Cəmi | 44 | 36 | 6 |

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a

**5 nömrəli əlavə**

**"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ı bitirmək haqqında / On completing "The Special Programme on training related to professional activities and behaviours of drivers performing international**

**and domestic passenger and goods transportation by general use road transport, characteristics of their work and rest regimes, as well as legal acts regulating transportation of goods and passenger by road transport”**

**ŞƏHADƏTNAMƏ**
**CERTİFİCATE**

**№ _____**

**Verilir/Given to**: _______________________
(soyadı, adı və atasının adı/surname, given name və patronymic)

**Sürücülük vəsiqəsi/Driving License: _____** № _________

**Kateqoriya/Category (*Altkateqoriya/Subcategory)* ____**[1]

**Verildiyi tarix/Date of issue:**
**“____”** ____________ 20___ il/year

Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin / beynəlxalq və ölkədaxili yük (lazım olmayanın üstündən xətt çəkilir) daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin/yük (lazım olmayanın üstündən xətt çəkilir) daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair tədris proqramı üzrə tam kursu bitirmişdir. / Has completed the full training course on professional activities and behaviours of drivers performing international and domestic passenger / international and domestic goods transportation (strike out the unnecessary one) by general use road transport, characteristics of their work and rest regimes, as well as legal acts regulating transportation of passengers / goods (strike out the unnecessary one) by road transport.

**Tədris kursunun keçirildiyi tarix/Training period:**
_________________________________ - ______________________
(başlama tarixi/date of commencement) bitirmə tarixi/date of completion)

**Verildiyi tarix/Date of issue:**
_____________________ _____

**Şəhadətnamə verilib/Certificate issued by:**
_______________________________________ ___
(qurumun adı/name of the organization)
__________________________________ ________
(qurumun rəhbərinin adı və soyadı/name and surname of head of the organization)

**Etibarlıdır/Date of expiry**: ________________________

__________________________
(imza/signature)

M.
Y. /
Seal

"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a

**6 nömrəli əlavə**

**"Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ı bitirmək haqqında**

## ŞƏHADƏTNAMƏ

**№ __________**

**Verilir: ______________________________**
(soyadı, adı və atasının adı)

**Kateqoriya (*Altkateqoriya*): _____**[2]

**Sürücülük vəsiqəsi: _____ №**
**_________**

**Verildiyi tarix "____" ____________ 20___ il**

Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin/ölkədaxili yük (lazım olmayanın üstündən xətt çəkilir) daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin/yük (lazım olmayanın üstündən xətt çəkilir) daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair tədris proqramı üzrə tam kursu bitirmişdir.

**Tədris kursunun keçirildiyi tarix:**
_________________________ -
_______________________
(başlama tarixi) (bitirmə tarixi)

**Verildiyi tarix:**
_______________________
____

**Şəhadətnamə verilib:**

**Etibarlıdır:**

(qurumun adı)

(qurumun rəhbərinin adı və soyadı) M. Y. (imza)

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 13 iyun 2019-cu il tarixli **269** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 15 iyun 2019-cu il, № 129, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1158)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 13 iyun 2019-cu il tarixli **269** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 15 iyun 2019-cu il, № 129, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1158)** ilə "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ı bitirmək haqqında şəhadətnamə"yə "**Kateqoriya/Category**" sözlərindən sonra "**(Altkateqoriya/Subcategory)**" sözləri əlavə edilmişdir.

[2] 13 iyun 2019-cu il tarixli **269** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 15 iyun 2019-cu il, № 129, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1158)** ilə "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ı bitirmək haqqında şəhadətnamə"yə "**Kateqoriya**" sözündən sonra "**(Altkateqoriya)**" sözü əlavə edilmişdir.